UOT 94

SEVİNC RUİNTƏN
Bakı Dövlət Universitetinin dosenti
sevinjruintan@bsu.edu.az

TERMİNLƏRLƏ OSMANLI TARİXİ: "SANCAQ SİSTEMİ", "QARDAŞ QƏTLİ", "EKBER VE ERŞED SİSTEMİ", "QƏFƏS SİSTEMİ"

DOI: https://doi.org/10.36719/2708-065X/103/17-24

Milli İstiqlal müharibəsinin gedişində Osmanlı sultanlığının ləğvi, Lozanna müqaviləsindən sonra Cümhuriyyətin elan edilməsinin ardınca Türkiyədə həyatın bütün sahələrində olduğu kimi, tarix elmi sahəsində də bir sıra islahatlar, yeniliklər həyata keçirildi. Bu çərçivədə, müsbət hal kimi dəyərləndirə biləcəyimiz bir çox məsələlərlə bərabər, artıq mövcud olmayan sultanlığın tarixinə münasibətdə ögey yanaşmanı da müşahidə etmək mümkündür. Bəşər tarixinin ən uzun ömürlü imperiyalarından biri olmuş Osmanlı tarixinin ayrı-ayrı problemləri ilə bağlı, hətta günümüzdə belə birtərəfli, qərəzli araşdırmaların yazıldığını görməkdəyik. Öz tərəfimizdən belə məsələlərə yeri gəldikcə aydınlıq gətirilməsini lazım bilirik. Bu məqsədlə, hazırki məqalə çərçivəsində, mövcud tarixşünaslıq əsərləri əsas götürülərək, Osmanlıda vərasət sistemi çərçivəsində "sancaq sistemi", "qardaş qətli", "ekber və erşed sistemi", "qəfəs sistemi" anlayışları nəzərdən keçiriləcək, Osmanlıda baş verən bu hadisələrin, yeri gəldikcə, ümumilikdə digər xalqların və dövlətlərin də tarixindən paralellər gətirməklə izah edilməsinə cəhd göstəriləcəkdir.

Açar sözlər: Osmanlıda vərasət sistemi, Sancaq sistemi, Qardaş qətli, Ekber ve Erşed sistemi, Qəfəs sistemi.

Giriş. "Vərasət" sözü məna etibarı ilə "mirasda haqq sahibi olmaq, varis olmaq" deməkdir. Monarxiya quruluşlu dövlətlərdə tətbiq edilən bu sistem hakimiyyətin bir sülalənin əlində qalmasını təmin edən sistemdir. Osmanlı da vərasət sisteminin tətbiq edildiyi dövlətlərdən olmuşdur. Bu sistemin Osmanlının inkişafına həm müsbət, həm də mənfi təsirləri olmuşdur. Yarandığı zaman qədim türk vərasət sisteminə əsaslanan bu sistem Osmanlının mövcudluğu dövründə bir neçə dəfə dəyişikliyə uğramışdır.

Türkiyə tarixşünaslığında mövcud olan araşdırmaları qısa olaraq ümumiləşdirsək, dövlətin quruluşunun ilk illərində ölkə Kayı boyuna məxsus olmaqla, sülalə üzvlərinin ortaq malı idi, mərkəzi hakimiyyət zəif idi. Orxan Qazi zamanında (1326-1359) sancaq sistemi tətbiq edildi. I Muradın dövründə (1359-1389) hakimiyyət "ata və onun oğullarına", yəni Osmanoğullarına aid edildi. Bununla ilk dəfə səltənət prinsipi tətbiq olundu. II Mehmed (1444-1446, 1451-1481) ölkənin idarəsi padşaha aiddir, "devletin bekası ve nizam-ı alem için kardeş katli uyğundur" deyərək, "Fateh Qanunnaməsi"ndə qardaş qətlini qanuniləşdirdi. I Əhmədin dövründə (1603-1617) qardaş qətli aradan qaldırıldı, "Ekber ve Erşed", həmçinin "Qəfəs"sistemləri tətbiq edildi. Bununla da taxt savaşlarının qarşısı əsasən alınmış oldu.

Osmanlı tarixi araşdırmaçıları arasında Osmanlı vərasət sisteminin qədim türk adətləri ilə bağlı olduğu fikrində olan müəlliflər də vardır ki (məsələn, Hammer, Akman, Ahmetbeyoğlu vb.), hazırki məqalədə onların fikirlərindən də geniş istifadə edilmişdir.

Qədim türklərdə vərasət sistemi. Ümumilikdə məlumdur ki, qədim türklərdə hakimiyyət Xaqana/Kağana məxsus olurdu. Bu yüksək səlahiyyət ona Tanrı tərəfindən verilirdi. Qədim türk dövlət hüququnda "kut" sözü ilə ifadə olunan siyasi hakimiyyəti əldə etmənin başqa bir yolu olmamışdır.

Fransız türkoloqu, İslam mədəniyyəti üzrə mütəxəssis Jean-Paul Roux bu məsələdən bəhs edərkən bildirir ki, "... "Kut", Tenqrinin sadəcə hökmdarlara verdiyi güclü bir ruhdur. Tenqri bu ruhu bir Kağana uygun gördüyü zaman verir, uyğun gördüyü zaman geri alır. Bu ruha sahib olan bir Kağanın ünvanına "Tenqrikut" əlavə edilir. Kut sözünün mənası "mutluluk" olarak bilinsə də, bu, ikinci mənasıdır. Moğol dilində kut "kader" deməkdir" [12].

Türk inancına görə, Kut Xaqanın Tanrı ilə əlaqəsi [1, s.35], Tanrının hədiyyəsi idi, dövlətin idarə edilməsi üçün dövləti idarəetmə səlahiyyətinin bir nəfərə verilməsini ifadə edirdi [1, s.37]. Xaqanların hamısının ortaq ünvanı "Tanrının kutu" ifadəsi idi [4, s.27]. Hökmdarın insanpərvərliyi, ədalətə əsaslanan gücü və digər şəxsi keyfiyyətləri də onun qanuni hakimiyyətinin əsaslarından birini təşkil edirdi. Lakin bu keyfiyyətlər ona qeyri-məhdud hakimiyyət vermirdi, o, adət-ənənəyə, qurultay qərarlarına zidd hərəkət edə bilməzdi. Hökmdarlıq, idarəetmə səlahiyyəti Törə ilə çərçivələnirdi. Türk toplumu üçün Törə o qədər əhəmiyyətli idi ki, "dövlətsiz olunur, fəqət Törəsiz olunamaz" deyilirdi [1, s.37].

Osmanlı tarixi və hüquq tarixi araşdırmaçısı Mehmet Akman yazır ki, "kutlanmış" (yəni, kut verilmiş – S.R.) hökmdar onu əlində saxlaya bilməsi üçün təvazökar, ədəbli və dürüst olmalı, böyüklərə hörmət etməli, təkəbbürü və qüruru ilə başqalarını incitməməli, ifratçı olmamalı, var-dövlətini boş yerə sərf etməməli, pis və çirkin işlərə qarışmamalıdır və s. Türk dövlətlərində sülalə mənsubları, kimə veriləcəyi bəlli olmayan "kut"a çatmaq üçün hər fürsətdə bacarıqlarını göstərərək taxta çıxmağa cəhd edirdilər [4, s.31]. Xaqan ölkəni düzgün, ədalətlə idarə etməyəndə xalq narazılıq edir, sülalənin digər üzvləri narazı xalqı öz tərəfinə çəkməklə "kutu geri alındığı" səbəbilə onu hakimiyyətdən uzaqlaşdırırdılar [4, s.28-29]. Ümumi türk tarixi araşdırmaçısı, qədim türklərdə kut və törə anlayışları ilə bağlı araşdırmaların müəllifi Ali Ahmetbeyoğlu qeyd edir ki, XIV əsr ərəb səyyahı, tacir İbn Batuta "Səyahətnamə"sində türklərin ildə bir dəfə toplanaraq Xaqanın törəyə uyğun hərəkət edib-etmədiyinin müzakirə edildiyi, uyğun hərəkət etmədiyi təqdirdə, onun hakimiyyətdən kənarlaşdırıldığı haqda məlumat verir [1, s.37].

Qeyd etmək lazımdır ki, əslində, törəyə görə sülalənin bütün üzvlərinin kut əldə etmək, hakimiyyətə keçmək hüququna sahib olmalarına rəğmən, vəfat edən hökmdarın oğulları hər zaman digərlərindən bir addım öndə olurdular. Hökmdarlar da vəsiyyətlərində əsasən oğullarını varis təyin edirdilər [4, s.32]. Belə ki, Tanrı tərəfindən "kutlanmış" Xaqanın yerinə keçəcək şəxsin onun ailəsindən çıxa biləcəyi düşüncəsi zamanla hakim düşüncəyə çevrilmiş, qanun halını almışdı. Ümumilikdə bu qayda ilə razılaşmayan sülalə üzvlərindən biri hakimiyyəti istənilən yolla ələ keçirsə belə, onun legitimliyi problem yaratmırdı. Lakin atalarından "qanlarına keçmiş kut"a sahib oğullar arasında taxt savaşları daxili iğtişaşlarla nəticələnə, əgər oğullardan biri uğur qazana bilməsə, dövlətin parçalanmasına səbəb ola bilərdi ki, bu məqamda, qurultayların vərasət sistemi üzərində mühüm təsiri özünü göstərirdi: sülalə üzvləri arasında fikir ayrılığı yarandığı zaman məsələnin həlli üçün qurultay çağırılır və, əsasən də, qurultayın qərarına əməl edilirdi [4, s.32].

Bütün bu deyilənlərdən aydın olur ki, qədim türk dövlətlərinin idarəçisi olan Xaqan gücünü, səlahiyyətini hər nə qədər Tanrıdan almış olsa belə, ümumilikdə, digər xalqlardan fərqli olaraq, türklərdə:

1) Hökmdar Tanrı deyil, sadəcə Tanrı tərəfindən kut verilmiş idarəedici olaraq qəbul edilirdi;

2) İdarə etdiyi ölkə onun mülkü sayılmırdı;

3) Dövlət törəyə uyğun idarə edilmədikdə hökmdarın kutu geri alınır, o, hakimiyyətdən kənarlaşdırılır, qurultay tərəfindən kut aldığı hesab edilən yeni hökmdar seçilirdi.

Bu xüsusiyyətlər aspektindən baxıldığında, qədim türk dövlətlərində aristokratiyanın hansı səbəblərdən olmadığı da aydın olur [4, s.28-29].

Osmanlıda vərasət sistemi - Osmanlı sülaləsinə mənsub şəxslərin hüquqa və törəyə əsasən taxta sahib olma hüququnu ifadə edirdi. Osmanlıda ilk dövrlərdə sultan olmaqla bağlı qəti müəyyənləşdirilmiş qaydalar olmamış, bu səbəbdən də hakimiyyətdə olan sultan öldüyündə taxta keçəcək şəxsi dövlətin nüfuzlu məmurları - üləma və ümera (*əmirlər, bəylər* – S.R.) kimi zümrələr fərqli yollar və vasitələrlə seçirmişlər. Bu sistemin həyata keçirildiyi zaman kəsimində saysız-hesabsız intriqalar yaşanmış [4, s.32], yaşanan çəkişmələrin qarşısını almaq məqsədilə vərasət sistemində bir neçə dəfə dəyişikliklər edilmişdir.

"Sancaq sistemi". Sancaq sistemini başladan – Orxan Qazi (1326-1359), Sancaq sistemi ilə taxta ilk çıxan – I Murad (1359-1389), Sancaq sistemini qanuniləşdirən – II Mehmed (1444-1446, 1451-1481), Sancaq sistemi ilə taxta son çıxan padşah – III Mehmed (1595-1603), Sancağa çıxmadan padşah olan ilk sultan – I Əhməd (1603-1617) olmuşdur.

Osmanlı dövlətində ən yüksək inzibati vahid əyalət idi. Əyalətlər öz növbəsində, Osmanlı inzibati sisteminin maliyyə və hərbi sisteminin təməlini təşkil edən sancaqlara bölünürdülər. "Təhrir dəftərləri"ndə (Vergi dəftərləri – S.R.) sancaq vahidi əsas götürülmüş, qanunnamələr hər sancaq üçün ayrı-ayrılıqda hazırlanmışdır. Osmanlı dövlətində sancaq həm iqtisadi potensialın müəyyən edilməsi və bölüşdürülməsi baxımından, həm də hərbi baxımdan əsas vahid hesab edilmişdir. Belə ki, müharibə zamanlarında hər sancaq bəyi özünün əsgərləri ilə tabeliyində olduğu bəylərbəyinin əmrinə gəlirdi. İlk dövrlərdə davamlı fəth siyasəti səbəbindən sancaqların hərbi əhəmiyyəti ön planda olsa da, sonrakı zamanlarda hərbi əhəmiyyətinə bir də inzibati əhəmiyyət əlavə olunmuşdu [16, s.46].

Sancağa çıxma – şahzadələrin idarəçilik bacarığı əldə etmələri məqsədilə sancaqlara vali göndərilməsi, başqa sözlə "şahzadə hazırlığı sistemi" ("Şehzade eğitim sistemi") deməkdir. Osmanlı sultanlarının oğulları hələ atalarının sağlığında yüksək vəzifələrə təyin olunur, hərbi, siyasi, idarəçəlik baxımından sultan olmağa hazırlanırdılar. Bu məqsədlə şahzadələr 10-17 yaşlarına çatdıqda anaları, əsgərləri və tabeliyində olan yaxın ətrafı ilə (maiyet* ilə) Anadolunun müxtəlif şəhərlərinə göndərilirdilər. Sancağa göndərilən şahzadələrə "Çələbi sultan" deyilirdi. Çox təcrübəli dövlət adamları olan Lalalar/Atabəylər tərəfindən onlara dövlət işləri öyrədilir, eyni zamanda döyüş sənəti, dini və mənəvi və digər təhsillərə də xüsusi diqqət yetirilirdi.

Şahzadələr öz sancaqlarında tımar** ve zeamet*** verə bilər, hökm çıxara bilər, əsgərləri ilə birlikdə müharibələrə qatıla bilərdilər. Lakin görəcəkləri bütün işlər haqqında mərkəzə məlumat vermək məcburiyyətində idilər ki, bu da mərkəzi hakimiyyətin möhkəmliyinə xidmət edirdi. Osmanlı dövlətinin uzun ömürlü olma səbəblərindən biri də, məhz mərkəzi hakimiyyətin güclü olması olmuşdur.

Şahzadələrin sancaqlara göndərilməsi II Mehmedin zamanından (1451-1481) məcburi tətbiq olunmağa başlandı. Ən məşhur sancaq şəhəri Manisa olmuşdur (İldırım Bəyazidin oğlu Şüleyman Çələbi, II Muradın oğlu Fateh Mehmed, onun oğlu Mustafa, II Bəyazidin oğulları Abdullah, Aləmşah, Qorqud və Mahmud, Yavuz Səlimin oğlu Süleyman Qanuni, onun oğulları Mustafa, Mehmed və II Səlim, Səlimin oğlu III Murad, Muradın oğlu III Mehmed. Mehmed Manisaya göndərilən son şahzadədir). Digər əhəmiyyətli sancaq şəhərləri: Amasya, Konya, Trabzon, Kütahya, Sivas, Sinop, Muğla, Bursa, İzmit, Əskişəhər və Balıkəsir olmuşdur [15].

Tarixi ədəbiyyatlarda sancaq sisteminin müsbət cəhətləri ilə bərabər, həm də mənfi cəhətlərinin olduğu haqda da fikirlər mövcuddur:

- ✓ Müsbət cəhətlər kimi qeyd edilir ki, Şahzadə hazırlıq sistemi nəticəsində gələcəyin sultanları mükəmməl şəkildə hazırlanırdılar. Xalqla birlikdə yaşamağı öyrənən şahzadələr, xalqın problemlərini bilir, onları aradan qaldırmağın yollarını axtarır, məmurları da bu istiqamətdə yönləndirirdilər [15].
- ✓ Mənfi cəhətlərindən biri kimi qeyd edilir ki, taxt uğrunda mübarizə kəskinləşirdi. Belə ki, Sultan vəfat edərkən İstanbula ilk daxil olan şahzadə taxta keçir, digər varislərlə şiddətli mübarizə başlayır, mübarizədə üləmanın, ümeranın və Yeniçəriərin dəstəyini alan şahzadə üstünlük qazanırdı. Bu mübarizə dövlətə çox böyük zərər verirdi. Məsələn, Ankara döyüşü sonrası yaşanan Fetret dövrü (hakimiyyətsizlik dövrü, 1402-1413) hadisələri buna misal ola bilər.

"Qardaş qətli". Fetret dövrü hadisələrinin bir daha təkrarlanmaması üçün Fateh Sultan Mehmed "Fateh Qanunnaməsin"ə "Devletin bekası için kardeş katli uyğundur" deyə bir maddə daxil etdi. Bununla da, dövlətin gələcəyi üçün qardaşın qardaşlarını öldürməsinə icazə verilmiş oldu [7, s.11-12]. Amma qeyd etdiyimiz kimi, bu maddənin Qanunnaməyə daxil edilməsində məqsəd, taxt intriqalarının

---

* *Maiyet – yuxarı vəzifəli məmurun yanında çalışan aşağı vəzifəli məmur mənasını verir / Türk Dil Kurumu Sözlükleri. - https://sozluk.gov.tr/ [02.12.2023].*
Sancağa göndərilən şahzadələri xəzinədar, nişancı, ruznameci, çavuşbaşı, divan katibi, miralem, mirahor, çeşnigir, kapıağası, həkim, bağban və digər məmurlar müşaiyət edirdilər. Bu, kiçik dövlət nümunəsi idi, şahzadələrə mükəmməl şəkildə hazırlanmaq imkanı verilməsinə xidmət edirdi – S.R.

** *Tımar – Anadolu Səlçuqlu və Osmanlı dövlətlərində müəyyən bir xidmət müqabilində verilən, illik gəliri 3.000 – 20.000 akçe olan torpaq / Türk Dil Kurumu Sözlükleri. - https://sozluk.gov.tr/ [02.12.2023].*

*** *Zeamet – illik gəliri 100.000 – 200.000 akçe olan böyük tımar. Kiçik dövlət məmurlarına verilirdi / Türk Dil Kurumu Sözlükleri. - https://sozluk.gov.tr/ [02.12.2023].*

qarşısını almaq, ən güclü olanın taxta keçməsini təmin etmək olsa da, Osmanlı tarixi araşdırmaçıları hesab edirlər ki, tam da əksinə, xanədan içi hesablaşma və intriqa dönəmini başladaraq öldürülmə qorxusunu hər şahzadənin həyatının bir parçası halına gətirmişdir.

Burada bir məqama da aydınlıq gətirmək istərdik. Araşdırmaçılar arasında "Fateh Qanunnaməsi"ndə bu maddənin necə yazılmış olması ilə bağlı fikir ayrılıqları mövcuddur. Belə ki, yuxarıda əsərinə istinad etdiyimiz Ender Ethem Atay da daxil olmaqla, bir qrup araşdırmaçılar "Devletin bekası için kardeş katli vaciptir" deyə yazıldığını iddia etsələr də, A.Nilüfer İsvan, İrvin Cemil Schick və digər bir qrup araşdırmaçı "Oğullarımdan hər hansına taxta çıxmaq nəsib olarsa, ictimai asayiş üçün qardaşlarını qətlə yetirməsi uyğundur. Alimlərin çoxu bunun din baxımdan heç bir zərəri olmadığı qənaətindədir. Ona uyğun hərəkət etsinlər" deyə yazıldığını bildirirlər. Yəni burada "vacibdir" deyil, "uyğundur" deyildiyi və bu qərarın din baxımdan da uyğun görüldüyünü xüsusi qeyd edilir: "Ve her kimesneye evlâdımdan saltanat müyesser ola, karındaşların nizâm-ı âlem içün katl etmek münâsibdir. Ekser ulemâ dahi tecvîz etmişdir. Anınla âmil olalar" [2]. Həmçinin, "Qanunnamə"nin üzərində "Bu Kanun-name atam ve dedem kanunudur ve benim dahi kanunumdur. Evlad-ı kiramım neslen-ba'deneslin bununla amil olalar" deyə yazılmasını, əslində qardaş qətlinin Fatehdən əvvəl də mövcud olduğunun və sadəcə onun zamanında qanuniləşdirildiyinin sübutu olduğunu qeyd edirlər [2].

Osmanlı tarixi araşdırmaçılarından Mehmet Akman, Osman Turan və bir çox digərləri qardaş qətli hadisəsinin mahiyyət etibarı ilə siyasi hakimiyyəti ələ keçirmək və ya əldə saxlamaqla bağlı olduğunu, həm də bu qətllərin yalnız Osmanlı tarixində deyil, Bizans, İran, Ərəb, həmçinin bəzi türk dövlətlərinin də tarixində baş verdiyini qeyd edirlər [4, s.20-23; 5, s.207, 6, s.243-244; 13, s.4].

Ümumi türk tarixində ilk sülalə daxili qətl hadisəsinə Oğuz xaqan dastanında rast gəlinir: Oğuz xan tək Tanrıya inanmaq məsələsində atası Qara xan və əmiləri Kür xan və Küz xanla aralarında olan mübahisə zamanı onları öldürərək taxta keçmişdir [11, s.18-19]. Bundan sonra hunlarda, səlcuqlarda və digər türklərdə də oxşar hadisələr baş vermişdir [bu haqda ətraflı məlumat üçün bax: 4, s.33-36].

Avstriyalı tərçüməçi, diplomat, tarixçi-şərqşünas, şərqşünaslıq elminin klassiklərindən hesab edilən *Jozef fon Hammer-Purgstal* 1827-1835-ci illərdə yazdığı 10 cildlik "Osmanlı imperiyasının tarixi" ("Geschichte des Osmanischen Reiches") adlı əsərində qardaş qətli haqqında II Mehmedin qanunlarından bəhs edərkən, burada məqsədin məhz qətlə yetirmək olduğunu deyərək, onu qanunların "ən qorxulusu" adlandırır: "... II Mehmeddən öncə də Osmanlıda qardaş qətlinə rast gəlmək mümkündür, lakin bu qətllər fərqli səbəblərdən baş verirdi. I Mehmed Çelebi (1413-1421) və II Murad da (1421-1451) qardaşlarını qətl etmişdilər, lakin onlar əllərində silah üsyana qalxmış qardaşlarını qətl edirdilər. II Mehmed isə qardaşını "belə bir səbəb olmadığı halda" edam etdirmişdi ... və bu hadisəni Mehmed-i Kuvvel'e şeref konusu hesab edənlər var" [5, s.207-208].

Hammer daha sonra qeyd edir ki, qardaş qətli sultanların yalnız qardaşlarına münasibətdə deyil, həmçinin onların qardaşları və bacılarının oğulları, nəvələrinə də tətbiq edilirdi: "Mehmed gələcəkdə dövləti təhdid edəcək hadisələrin baş verməsinin qarşısını almaq məqsədilə, "Qanunnamə"sində həmçinin "qızlarımın övladları Bəylərbəyi vəzifəsinə təyin olunmayacaq, ancaq sancaq bəyi ola biləcəklər" deyə yazırdı [5, s.208]. Burada Hammer daha bir maraqlı məqama diqqət yetirir: "bu qayda sultanların yalnız nəvələri üçün nəzərdə tutulurdu. "Qanunnamə"də sultanların övladları ilə bağlı söz keçməməsinin səbəbi o ola bilər ki, artıq çoxdan adətə çevrilmiş qaydaya görə, onlar dünyaya gəldiklərində göbəkləri bağlanmamaqla ölümə məhkum edilirdilər" [5, s.208].

Osman Turan araşdırmalarında, padşahlar və alimlər kimi, xalqın da "nizam-ı alem düşüncesi, din ve devletin bekası kayğısı ile" zəruri olduğu halda qardaş qətlinin məqbul olduğunu, həmçinin Aşık Paşazadənin "kadimden töredir kardeşe kıymak", "bizden önce gelenler bu kanunu koymuşlardır" deyə yazdığını bildirir [6, s.244].

Mehmet Akman da Osmanlı dövlətindəki qardaş qətli ilə kut anlayışı arasında əlaqənin olduğu fikrindədir: "Osmanlı sultanlarının digər səbəblərlə yanaşı, özlərinin kutlarının davam etdiyini göstərmələri, digər sülalə üzvlərinin "kutlarının parlamaması" üçün qardaş qətlindən istifadə etdiyini də söyləmək yəqin ki, yanlış olmaya bilir" [4, s.31]. Müəllif "Osmanlı dövlətində qardaş qətli" adlı araşdırmasında, Osmanlı tarixi boyunca müxtəlif səbəblərdən ("üsyan etdiklərinə" və "heç bir günahları olmadan") 61 xanədan daxili öldürmə hadisəsinin baş verdiyini bildirir: atanın oğlunu edam etdirdiyi 4,

qardaşın qardaşı öldürtdüyü 35, əminin qardaşı oğunu öldürtdüyü 12, qardaş oğlunun əmisini öldürtdüyü 3, babanın nəvəsini öldürtdüyü 6 və bəzi məlumatlara görə, oğulun atanı öldürtdüyü 1 hadisə. Müəllif araşdırması zamanı, eyni zamanda mənbələrlə təsdiq olunmayan digər qətllər haqda da məlumatlara rast gəldiyini də bildirir [4, s.39-42].

"Qəfəs sistemi", "Ekber ve Erşed sistemi". Şahzadələr arasında taxt intriqalarını aradan qaldırmaq, qardaş qətllərinin qarşısını almaq məqsədilə Sultan I Əhmədin dövründən başlayaraq "Qəfəs sistemi"nin tətbiqinə, "Ekber ve Erşed sistemi"nin həyata keçirilməsinə başlanılmışdır. Daha doğrusu, I Əhmədin 1603-cü ildə taxta çıxması ilə "Ekberiyet sistemi" başlamış, 1617-ci ildən sonra "Erşediyet sistemi" ilə birlikdə uygulanmışdır. Bu dövrdən artıq Osmanlı şahzadələrinin sancaqlara göndərilməyib, Topqapı sarayında qəfəsdə saxlanılmasına başlanılmışdır. Bu sistemin tətbiqi ilə hökmdarın taxta keçməsi üçün zəruri olan şərtlər dəyişmiş, "ağlı başında" və "ən yaşlı" olmaq əsas şərt olmuşdur. Elə sistem özü də adını "Ekber" - "Böyük, daha uca" və "Erşed" - "yetkinlik yaşına çatmış, qərar qəbul etmək qabiliyyətinə malik, əqli cəhətdən inkişaf etmiş, sağlam şəxs" mənasını verən sözlərdən almışdır [3].

Ekber ve Erşed sistemi ilə şahzadələrin saray içərisində yetişdirilməsinə keçilmişdir. Bu sistemin də özündən əvvəlki sistemlər kimi həm müsbət, həm də mənfi nəticələri olmuşdur. Müsbət cəhəti – ilk baxışdan, şahzadələr arasında taxt intriqalarının qarşısının alınması, mənfi cəhəti – şahzadələrin idarəçilikdən uzaq saxlanılması səbəbindən idarəçilik bacarıqlarının olmaması hesab edilir.

Ekber ve Erşed sisteminin tətbiqinə keçilməsi ilə bütün şahzadələrin Topqapı sarayında xüsusi otaqlarda gözətçilərin nəzarəti altında davamlı olaraq ev həbsində tutulmasına başlandı. Həyatlarının qorunması qarşılığında azadlıqlarından məhrum edilmiş şahzadələrin saxlandıqları otaqlara qəfəs deyilirdi [10, s.185]. Topqapı sarayında Hərəm-i Humayunun yanında şimşək (və ya şümşad) ağacları[*] ilə əhatə olunan yerdə yerləşdiyinə görə qəfəslər olan yerə Şimşirlik deyilirdi [8, s.5]. Şimşirlik ərazisində çox sayda otaqlardan ibarət 10-12 mənzil olurdu. Hündür divarlarla əhatə olunmuş bu yerin kiçik bağçağı olurdu. Qəfəslər vəliəhd dairələri qarşısında, Validə Taşlığı[**] yerləşən daxili həyətə baxır, Validə Sultanın dairəsi ilə Darussaadə ağalığı[***] arasında yerləşirdilər. Qəfəsdə olan şahzadələrin hər birinin 10-12 cariyəsi, yeməklərin saxlandığı zirzəmidən təyin edilmiş ağaları olurdu. Lakin şahzadələr onları görə, onlarla danışa bilməzdilər, ümumiyyətlə heç kimlə ünsiyyət qura bilməzdilər. Buna cəhd göstərənlər edam edilirdilər. Şahzadənin səhhətində problem yaranarsa, yanına gedəcək həkim yalnız Sultanın icazəsi ilə və nəzarət altında onu müayinə edirdi. Qəfəsdə saxlanılan şahzadələr bir-birləri ilə də görüşə bilməzdilər. Ataları Sultanın ölümündən sonra şahzadələrin anaları və bacıları köhnə saraya göndərilirdilər. Yeni Sultan icazə verərdisə, yalnız anaları gəlib oğulları ilə görüşə bilərdi. Şahzadələr yalnız bayram təbriki münasibətilə Sultanın hüzuruna qəbul edilirdilər və bu qəbul da qəfəsdə baş verirdi. Qəfəsdəki şahzadələrdən taxtda olan Sultanla eyni ata və ananın övladı olanlar digərlərindən şanslı hesab edilirdilər. Qəfəsdə olan şahzadələrin təhsili və digər ehtiyacları xidmətlərində olan cariyələr tərəfindən qarşılanırdı. Lakin cariyələr uşaq sahibi ola bilməzdilər, buna xüsusi nəzarət edilirdi. Şahzadələr yalnız taxta keçdikdən sonra ailə qura bilərdilər. Amma yaşadıqları şərtlər onların sonradan belə övlad sahibi ola bilmə ehtimallarını azaldırdı [9, s.175-176].

---

[*] *Latın dilində "Buxus" ("buxe" - sıx mənasını verir) adlanan şimşək ağacı həmişəyaşıl kol və ya ağacdır. Gec böyüyür. Oduncağı sıx olduğuna görə belə adlanır. – Azleks. İzahlı və ikidilli lüğətlər. - https://www.azleks.az/dictionaries/4/azerbaycan-dilinin-izahli-lugeti [02.12.2023].*

[**] *Padşahların sarayda ailələri ilə birlikde yaşadığı Hərəm Dairəsi. Haliç istiqamətindədir. - Valide Taşlağı / Osmanlı Kitabeleri Projesi. - http://www.ottomaninscriptions.com/information.aspx?ref=list&bid=3067&hid=0 [02.12.2023].*

[***] *Osmanlılarda "Darüssaade" sözü 380 ilə yaxın müddətdə sultanların və ailələrinin yaşadığı Topqapı sarayının Hərəm dairəsinin adı olaraq istifadə edilmişdir. Bəzi mənbələrdə bu söz sarayın özünə aid olaraq da işlədilmişdir. Məsələn, Ədirnə və İstanbuldakı köhnə saraylara "Darüssaade-i Atik" deyilmişdir. Sultanın özəl dairəsinin yerləşdiyi, hərəmləri, uşaqları və cariyələrinin yaşadığı bu yerin özünə məxsus quruluşu və xidmətçiləri olurdu. Burada bütün xidmətləri yerinə yetirən insanlara Darüssaade ağaları deyilirdi, onlar sultana və ailəsinə yaxınlıqları səbəbi ilə Osmanlı siyasi tarixində də önəmli rol oynayıblar. – Ülkü Altındağ. Darüssaade / TDV İslam Ansiklopedisi, IX cilt. İstanbul, TDV, 1994, s.1-3. - https://cdn2.islamansiklopedisi.org.tr/dosya/9/C09003260.pdf [02.12.2023].*

Qeyd etmək lazımdır ki, qəfəs sistemi qardaş qətlini aradan qaldırmaq üçün həyata keçirilmiş olsa belə, onu tamamilə aradan qaldıra bilmədi. Məsələn, II Osman (Gənc Osman – 1618-1622) Polşa səfərinə hazırlaşarkən (1621) qardaşı Şahzadə Mehmedi boğduraraq öldürtdü [10, s.187]. XVII əsrin ortalarında IV Murad Rəvan qalasını fəth edincə, İstanbula fəthnamə ilə birlikdə Süleyman və Bəyazid adlı iki qardaşını edam fərmanlarını da göndərdi (zəfər şənlikləri sırasında qardaşlarının edam xəbəri duyulmayacaqdı). Digər bir qətl, II Mahmudun qardaşı Sultan IV Mustafanı edam etdirməsidir [10, s.181].

XVIII əsrin sonlarına qədər qəfəs sisteminin sərt qaydalarla mövcudluğu davam etmişdir. III Mustafa (1757-1774) vəfat etdiyində oğlu III Səlim (1789-1807) 13 yaşında oduğuna görə, taxta Mustafanın qardaşı I Əbdülhəmid (1774-1779) çıxır. Mustafa qəfəsdə olmasına rəğmən Səlimə münasibətdə çox mülayim davranır. Hətta Səlimin Fransa kralı XVI Lui ilə (1774-1792) yazışdığı məlumdur. Bunun başqa, 1839-cu ildə I Əbdülməcid (1839-1861) də taxta çıxdığında qardaşı Əbdüləzizə anası ilə birlikdə yaşamaq şərtilə müəyyən azadlıqlar vermişdi. Əbdüləziz (1861-1876) taxta çıxdıqdan sonra daha da irəli gedərək, qardaşı oğullarına paytaxt həyatına qatılmalarına, saraydan kənarda öz evlərində yaşamalarına icazə verdi. Hətta qardaşı oğulları V Muradı və II Əbdülhəmidi özü ilə 1867-ci ildə Paris və London səfərlərinə də aparmışdı. Lakin hakimiyyətinin son illərində onların siyasətə qarışdıqları ilə bağlı xəbərlər alması ilə, onlara verdiyi azadlıqları məhdudlaşdırdı. Sonunda Əbdüləziz taxtdan endirildi və onun yerinə taxta sadəcə 93 gün qalmağı bacarmış V Murad (may-avqust 1876) keçdi. Muraddan sonra taxta keçən II Əbdülhəmid (1876-1909) onu Çırağan sarayında həbs etdi. V Muradın Çırağan sarayında saxlanılması istisna idi [9, s.180-181]. Bütün bunları əsas götürən türkiyəli araşdırmaçı Rahime Çeliker hesab edir ki, ümumilikdə, qəfəs uyğulamasının 1603-cü ildə I Mustafa ilə başlanması, 1861-ci ildə Əbdülməcidlə sona çatdığını hesab etmək mümkündür [9, s.180-181]. Araşdırmaçılar bu fikirdədirdəirlər ki, qəfəs sistemi nəticədə idarəçilikdə bacarıqsız sultanların ortaya çıxmasına səbəb olmuşdur.

Nəticə. Artıq qeyd etdiyimiz kimi, mövcudluğunun ilk illərində Osmanlı vərasət sistemi qədim türk adətləri ilə bağlı olmuşdur. Türkiyə tarixşünaslığına mövcud olan araşdırmaları qısa olaraq ümumiləşdirsək, dövlətin quruluşunun ilk illərində ölkə Kayı boyuna məxsus olmaqla, sülalə üzvlərinin ortaq malı idi, mərkəzi hakimiyyət zəif idi. Bundan sonra sancaq sistemi, daha sonra növbə ilə qardaş qətli, qəfəs sistemi, ekber və erşed sistemləri tətbiq edildilər. Bu sistemlərdən hər birinin Osmanlı tarixinə təsiri baxımından mənfi və müsbət cəhətləri olmuşdur. Hesab edirik ki, araşdırmalarda xüsusi diqqət yetirilməli olan məsələ ondan ibarətdir ki, Osmanlı vərasət sistemində mövcud olan bütün qayda və prinsiplər bu v ya digər formada ümumilikdə digər xalqların da tarixində mövcud olmuşdur. Bütün bunları nəzərə alaraq, həm də professor İlber Ortaylının haqlı olaraq "Osmanlı hökmdarının qardaş sevgisi və tolerantlığının sınırlı olması lazım idi" [14] sözlərindən də yola çıxaraq, tarixi hadisələrin müasirləşdirilmədən, meydana gəldikləri məkan və zaman çərçivəsində, "səbəb-nəticə" əlaqələri nəzərə alınaraq araşdırılmalı olduğunu doğru hesab edirik.

ƏDƏBİYYAT

1. Ali Ahmetbeyoğlu. Eski Türklerde Kut ve Töre Bağlamında Hükümranlığın Hududları // Tarih Dergisi_ Türkish Journal of History, 71 (2020/1), s.29-50. - https://dergipark.org.tr/en/download/article-file/1261942 [02.12.2023].
2. A. Nilüfer İsvan, İrvin Cemil Schick. Osmanlı hanedanında kardeş katli yahut aile içi rekabeti ortadan kaldırmanın gerekçeleri ve yolları / "K24" Kitap Kültür Kritik sitesi, 04 Ocak 2018. - https://t24.com.tr/k24/yazi/aile-ici-rekabet,1503 [02.12.2023].
3. Defne Karalar. Ekber ve Erşed nedir? Ekber ve Erşed Sistemi Özellikleri / Ders: Tarih, 30 Kasım 2021. - https://derstarih.com/ekber-ve-ersed/ [02.12.2023].
4. Dr. Mehmet Akman. Osmanlı Devletinde Kardeş Katli. Birinci Basım. İstanbul, Eren Yayıncılık, 1997, 208 s. - https://kupdf.net/download/mehmet-akman-osmanl-305-devletinde-karde-351-katli-1_589b6f8d6454a74a38b1eb2e_pdf [02.12.2023].

5. Joseph von Hammer. Büyük Osmanlı Tarihi. 10 Ciltte. Cilt 3. 263 s. - https://ru.scribd.com/document/456213434/Joseph-Von-Hammer-Buyuk-Osmanl%C4%B1-Tarihi-3 [02.12.2023].
6. Osman Turan. Türk Cihan Hakimiyeti Mefkuresi Tarihi. Türk Dünya Nizamının Milli, İslami ve İnsani Esasları. 18.Basım. İstanbul, Ötüken, 2009, 559 s.
7. Prof. Dr. Ender Ethem Atay. Osmanlıda Devlet Anlayışı ve Teşkilatı // Journal of Social Sciences and Humanities, s.1-20. - https://dergipark.org.tr/en/download/article-file/2282957 [02.12.2023].
8. Pınar Atalay. Osmanlı Padişahlarının Sehzadelik Dönemlerindeki Eğitimlerinin Tarihsel Sürce Etkisi. - https://www.academia.edu/40840618/OSMANLI_PAD%C4%B0%C5%9EAHLARININ_%C5%9EEHZ%C3%82DEL%C4%B0K_D%C3%96NEMLER%C4%B0NDEK%C4%B0_E%C4%9E%C4%B0T%C4%B0MLER%C4%B0N%C4%B0N_TAR%C4%B0HSEL_S%C3%9CRECE_ETK%C4%B0S%C4%B0 [02.12.2023].
9. Rahime Çeliker. Osmanlı Devleti'nde Uygulanan Kafes Sisteminin Psikotarihsel Bağlamda İncelenmesi // Kürd Araştırmaları Dergisi, Sayı 1, Güz 2019, s.173-197. - https://kurdarastirmalari.com/uploads/ariv/rahime_celiker_osmanli_kafes_sistemi.pdf [02.12.2023].
10. Reşad Ekrem Koçu. Topkapu Sarayı. İstanbul, İstanbul Ansiklopedisi Kütüphanasi: 2, 317 s. - https://turuz.com/storage/Turkologi/2016/1474-Topqpu_Sarayi-Eski_Saray_Yashami-Reshad_Ekrem_Kochu-266s.pdf [02.12.2023].
11. Rəşidəddin Fəzlullah. Oğuznamə. Bakı, AMEA Ensiklopediyası NPB, 2003, 108 s. - https://www.ebooks.az/view/0TXex1uq.pdf [02.12.2023].
12. Roux Jean-Paul. Türklerin ve Moğolların eski dini. 1.baskı. İstanbul, İşaret Yayınları, 1994, 320 s. - https://www.academia.edu/35006997/Jean_Paul_Roux_Tu_rklerin_ve_Mog_ollar%C4%B1n_Eski_Dini_pdf [02.12.2023].
13. Seyfettin Aslan. Osmanlılarda Siyasal İktidarı Koruma Çabası Ve Kardeş Katli // Dicle Üniversitesi İİBF Dergisi, Yıl 2017, Cilt 7, Sayı 12, s.1-11. - https://www.researchgate.net/profile/Seyfettin-Aslan/publication/317237058_OSMANLILARDA_SIYASAL_IKTIDARI_KORUMA_CABASI_VE_KARDES_KATLI/links/592d8890a6fdcc89e74d157f/OSMANLILARDA-SIYASAL-IKTIDARI-KORUMA-CABASI-VE-KARDES-KATLI.pdf [02.12.2023].
14. "Şark'ın Senyoru Fatih" / "Fatih ve Edirne" konferansında Prof. İlber Ortaylı'nın konuşması / Gündem Edirne, 31.03.2018. - https://www.gundemedirne.com/-sarkin-senyor-u-fatih/1134/ [02.12.2023].
15. Şehri Şehzade / TC Kültür ve Turizm Bakanlığı. - https://manisa.ktb.gov.tr/TR-151851/sehri-sehzade.html#:~:text=%C5%9Eehzadeler%20Anadolu%20da%20belli%20ba%C5%9Fl%C4%B1,en%20me%C5%9Fhur%20olan%20Manisa'd%C4%B1r. [02.12.2023].
16. Uğur Gök, Cavid Qasımov, Osman Kimya. Klasik Dönem Osmanlı Devlet Teşkilatında Sancak Biriminin İdarî Yapısı ve İşleyişi // Uluslararası Türk Dünyası Dilimsel Araştırmalar Dergisi, Cilt 2, Sayı 1, Haziran 2021, s.44-62. - https://dergipark.org.tr/en/download/article-file/1153871 [02.12.2023].

СЕВИНДЖ РУИНТАН
Доцент Бакинского Государственного Университета

ИСТОРИЯ ОСМАНСКОЙ ИМПЕРИИ В ТЕРМИНАХ: "САНДЖАКСКАЯ СИСТЕМА", "БРАТОУБИЙСТВО", "СИСТЕМА ЭКБЕР И ЭРШЕД", "КАФЕС"

В рамках настоящей статьи на основе исследований турецких и зарубежных историков исследуются вопросы престолонаследия в Османской империи. В этом контексте рассматриваются понятия «санджакская система», «братоубийство», «система Акбер и Эршед» и «кафес». События, произошедшие в Османской империи, также изучаются путем привлечения параллелей из истории других народов и государств.

Ключевые слова: Престолонаследие в Османской империи, Санджакская система, братоубийство, система Екбер и Ершед, Кафес.

SEVİNJ RUİNTAN
Associate professor of Baku State Uniiversity

OTTOMAN HİSTORY İN TERMS: "SANJAK SYSTEM", "FRATRİCİDE", "ELDEST AND COMPETENT", "KAFES"

Within the framework of this article, based on research by Turkish and foreign historians, issues of succession to the throne in the Ottoman Empire are explored. In this context, the concepts of "sanjak system", "fratricide", "Akber and Ershed system" and "kafes" are considered. Also, the events that took place in the Ottoman Empire are studied by drawing parallels from the history of other peoples and states.

Keywords: Succession to the throne in the Ottoman Empire, sanjak system, fratricide, eldest (ekber) and competent (ershed), kafes.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 02 dekabr 2023-cü il.
Məqalənin çapa qəbul olunma tarixi: 21 dekabr 2023-cü il.
Rəyçilər: *t.ü.f.d. Turan Axundova, t.e.d. İsmayıl Məmmədov.*